

# *Rəşid FAXRALI-70*

Hörmətli Rəşid müəllim!

Sizi - Azərbaycan ədəbi mühitində şair, publisist, ssenarist kimi tanınmış ziyalını 70 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirik.

Siz Azərbaycan Pedaqoji İnstitutunun riyaziyyat fakültəsində təhsil alanda da, Gürcüstanın Bolnisi rayonunun Faxralı kəndində riyaziyyat müəllimi işləyəndə də, rayon qəzetinin Azərbaycan bölməsinin redaktoru olanda da yaradıcılıqla məşğul olmusunuz, məqalələriniz, şeirləriniz "Qələbə bayrağı" və "Sovet Gürcüstanı" qəzetlərində müntəzəm dərc olunub.

1992-ci ildə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmisiniz.

1989-cu ildən Bakı şəhərində yaşayırsınız. "İnşaatçı" qəzetində müxbir, "Ədalət" qəzetində məsul katib işləmisiniz. 1992-ci ildən Müdafiə Nazirliyinin orqanı olan "Xalq ordusu" (sonralar "Azərbaycan ordusu") qəzetində məsul katib işləmisiniz. Yeni yaranan ordunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının yüksəldilməsində sizin yazdığınız silsilə məqalələr də əhəmiyyətli olub. Sizin Azərbaycan ordusunun zabiti kimi Müdafiə Nazirliyinin orqanı olan "Hərbi bilik" jurnalının, Müdafiə Nazirliyi Sənədli Filmlər Kino-Telestudiyasının yaradılmasında xüsusi əməyiniz olub, onların ilk redaktoru olmusunuz. 2005-ci ildə mayor hərbi rütbəsində tərxis olunmusunuz.

Birinci Qarabağ müharibəsi iştirakçısısınız, müharibə veteranısınız, İkinci qrup müharibə əlilisiniz.

İkinci Qarabağ müharibəsindən əvvəl və sonra yazdığınız məqalələr müharibə tariximizin ədəbi-publisistik salnaməsi kimi dəyərləndirilir. Vətən müharibəsində tarixi Zəfərin birinci ildönümünə həsr etdiyiniz "Əsgər nəfəsi" kitabınız Azərbaycan əsgərinin döyüş əzminin, qələbə ruhunun, Zəfərinin kitabıdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Əməkdar jurnalist adına layiq görülmüsünüz.

"Zaman, biz və kişiliyimiz", "Goranboy əməliyyatı", "Ömrün üfüqləri, "Səngərdən əbədiyyətə", "Ömür düsturu", "Əsgər nəfəsi", "Salam, ruhumuzun şəhəri Şuşam!" və s. publisistik kitabların, "Gözümdə hönkürür bir dəli sevda", "Könlüm cənnət qapısıdı", "Ömrümün üç nöqtəsi", "Araz boyu şimşək çaxa", "Müharibə", "Ərgünəşə qar yağırdı", "Seçilmiş əsərlər" (3 cilddə), "Lələtəpə", "Bayraqtəpə" və s. şeirlər, poemalar kitablarının müəllifisiniz. Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Jurnalistlər Birliyinin və Gürcüstan Yazıçılar Akademiyasının üzvüsünüz.

"Qızıl kəlmə", "Altun media", "Həsən Bəy Zərdabi", "Rəsul Rza", "Mikayıl Müşfiq" ədəbi mükafatları laureatısınız, bir neçə ədəbi müsabiqənin qalibi olmusunuz.

Hörmətli Rəşid müəllim!

Sizi 70 illik yubileyiniz münasibətilə bir daha təbrik edir, möhkəm cansağlığı, həyatda və yaradıcılığınızda uğurlar arzulayırıq!

**Azərbaycan Yazıçılar Birliyi**